# <u>Səfir Vada Ağdam rayonunda həyata keçirilmiş 2 "Ot kökləri" Yardım Layihələrinin ərazi baxışını həyata keçirdi.</u>

5 aprel tarixində Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cuniçi 2019-cu il "Ot kökləri və İnsan Təhlükəsizliyi" Qrant Yardım Proqramı çərçivəsində həyata keçirilmiş layihələrin ərazi baxışını həyata keçirdi.Bu layihələr " Paşabəyli kəndində uşaq bağçasının inşası" və " 2 kəndin icməli su təminatı sistemi ilə təchiz edilməsi" layihələridir. Su təminatı sistemi Ağdamın Xındırıstan və Çullu kəndlərində təchiz olunmuşdur.
Baxışda səfirlə bərabər Ağdam rayonunun İcra Hakimiyyətinin Başçısı Vaqif Həsənov və layihələri icra etmiş təşkilatların rəhbərləri də iştirak etmişdir. Paşabəyli kənd uşaq bağçası 2021-ci ilin aprelindən, Xındırıstan və Çullu kəndlərindəki su təminatı sistemi isə 2020-ci ilin martından əhalinin istifadəsinə verilmişdir.

Səfir Vada Paşabəyli bağçasına baxış keçirən zaman " Bağçada əylənən uşaqların təbəssümünü gördükdən sonra, Yaponiya hökümətinin Paşabəyli kəndində yaşayan uşaqların təhsil şəraitinin yaxşılaşdırılmasında rol oynadığının şəxsən şahidi olduğum üçün şadam. Kənd əhalisindən bu bağçanı diqqətlə istifadə etməsini arzulayıram.", deyə fikir bildirdi. Həmçinin Səfir Xındırıstan və Çullu kəndlərinin su təminatı sisteminə baxış keçirən zaman "Ermənistanla Azərbaycan arasında baş verən müharibədə çoxlu sayda mülki vətəndaşın zərər çəkməsi kədərləndirici bir haldır. Çullu və Xındırsatan kəndləri kimi içməli suya ehtiyacı böyük olan bölgələrdə Yaponiya Hökumətinin yardım fəaliyyəti göstərməsi çox sevindirici haldır. Yaponiya Hökuməti bundan sonra da müharibədən zərər çəkmiş Azərbaycan əhalisinin ehtiyaclarının ödənilməsi istiqamətində yardım fəaliyyətinin göstərilməsini nəzərdə tutur.", deyə əlavə etdi.

Paşabəyli bağçasının tikintisi üçün 89,424 ABŞ dolları, 2 kəndin su təminatı sistemi ilə təchiz edilməsi üçün isə 88,859 ABŞ dolları məbləğində yardım edilmişdir. İndiyə qədər Yaponiyanın Azərbaycandakı Səfirliyi 266 yardım müqaviləsini imzalamış, həyata keçirilmiş yardımın ümumi məbləği 22 milyon ABŞ dollarını keçmişdir.







